# VİZA PROSEDURLARI HAQQINDA MƏLUMAT

Azərbaycan Respublikası Miqrasiya Məcəlləsi Azərbaycan Respublikasında Miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, Miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti ilə bağlı normaları müəyyənləşdirir.

Məcəllədə aşağıdakı əsas anlayışlardan istifadə olunur. **Əcnəbi** - Azərbaycan Respublikası vətəndaşı olmayan şəxs. **Vətəndaşlığı olmayan şəxs** - heç bir dövlət tərəfindən onun qanununa əsasən Vətəndaş hesab edilməyən şəxs.

**Viza** - əcnəbilərin və Vətəndaşlığı olmayan şəxlərin dövlət sərhəddinin buraxılış məntəqələrindən müəyyən olunmuş qaydada keçməklə Azərbaycan Respublikasına gəlməsinə və Azərbaycan Respublikasından getməsinə, vizada göstərilmiş müddət ərzində ölkədə müvəqqəti olmasına hüquq verən rəsmi sənəddir.

Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında 3 gündən artıq olarlarsa, mütləq olduqları yer üzrə qeydiyyata alınmalıdırlar **(Maddə 21.1)**

Saxta və ya başqa şəxsə məxsus sənədlə sərhədi keçənlər qanunla nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb olunurlar **(Maddə 18.2)**

Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən vizalar iki növ olur. **Giriş və tranzit**

**Giriş** vizası birdəfəlik və çoxdəfəlik olur.

**Tranzit** vizası birdəfəlik və ikidəfəlik olur.

Giriş vizası doplomatik, xidməti və adi kateqoriyalara bölünür

Adi kateqoriyalı giriş vizaları işgüzar, elm, təhsil, əmək, turizm, mədəni, idman, humanitar, müalicə və şəxsi səfər məqsədləri ilə Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir. **(Maddə 24.5)**

Giriş vizasının etibarlılıq müddəti birdəfəlik giriş-çıxış üçün 90 günədək, çoxdəfəlik giriş-çıxış üçün 2 ilədək müəyyən olunur.

**Maddə 27.1** Elm və təhsil məqsədilə verilən giriş vizası bu sahədə Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət orqanlarının, elmi-tədqiqat institutlarının, dövlət qeydiyyatındam keçmiş, təhsil müəssisələrinin vəsatiti əsasında elmi fəaliyyətlə məşğul olmağa, müvafiq konfrans, seminar və digər elmi tədbirlərdə iştirak etməyə, təhsil müəssisələrinə qəbul olunaraq təhsil almağa və ya ixtisas artırmağa gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir.

**Maddə 27.2** Elm və təhsil vizasında ölkədə qalma müddəti 90 günlük müəyyən edilir.

**Maddə 45.0.9** Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamasına Respublikası ali və orta ixtisas təhsili müəssisələrində əyani formada və ümumtəhsili müəssisələrində təhsil aldıqda icazə verilir.

Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq icazənin verilməsi (müddətinin uzadılması) tələb olunan sənədlər **(Maddə 46)**

1. Ərizə-anket
2. Pasport və ya digər sərhədkeçmə sənədinin surəti
3. Müvəqqəti yaşamaq üçün icazənin verilməsinə əsas olan halları təqsdiq edən sənəd
4. Virus daşıyıcısı olub-olmaması haqqında arayış
5. Əgər əvvəl müvəqqəti yaşamaq hüququ verən sənədi olubsa surəti
6. 2 ədəd 3.5x4.5 sm ölçüdə fotoşəkil
7. Qeydiyyata alınacağı yaşayış sahəsinin sənədi

**Qeyd:** Pasport və ya digər sənədin etibarlılıq müddəti verilməsi nəzərdə tutulan müvafiq yaşama icazəsinin bitməsi tarixindən azı 3 ay artıq olmalıdır **(Maddə 46.1.2)**